# QARABAĞ AZƏRBAYCANDIR!

Müstəqil Azərbaycan Respublikası indiki nəslin gələcək nəsillərə əmanət qoya biləcəyi ən qiymətli milli sərvətidir. Bu müqəddəs əmanəti qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli bir məsuliyyət borcu olmalıdır. Dünya xalqları bilməlidirlər ki, Azərbaycan xalqı Vətənini sevir, sevəcək və lazım olduğunda bir yumruq kimi birləşərək canımızı torpaqlarımızın bütövlüyü, azadlığı uğrunda fəda etməyə hazır olasıdır.

Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi yazılmışdır, onun acı nəticələri milyonlarla insan taleyinə ciddi ziyan vuraraq ağır izlər buraxmışdı.1987- ci ildə Yerevanda təşkil edilmiş mitinqlərdə erməni millətçiləri azərbaycanlılara qarşı zorakılıq çağırışları etməyə başlamış və 1987-ci ilin sonlarında Azərbaycanın dinc əhalisini öz tarixi torpaqlarından xüsusi amansızlıqla, qəddarcasına çıxartmışdırlar. Azərbaycanlılar həm etnik təmizlənməyə, həm də əsl soyqırıma məruz qalmışdırlar. 1988-1989 cu illərdə Ermənistanın başqa rayonlarında yaşayan bütün azərbaycanlılara da divan tutularaq eyni aqibəti yaşatmışlar.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ Müdafiə Nazirliyi qoşun hissələri Azərbaycanın paytaxtı Bakı şəhərinə hücum etmiş, şəhər əhalisini müxtəlif tipli silahlardan atəşə tutularaq qətlə yetirmişdir. Sovet qoşunları xüsusi amansızlıqla mülki şəxsləri güllələyərək günahsız insanlara divan tutmuşlar. Belə hallar Neftçala, Lənkəran və Kəlbəcərdə də baş vermişdir. Bu ağrılı dövrdə Azərbaycanı müdafiə edə biləcək siyasi liderin olmaması vəziyyəti daha da pisləşdirirdi. Gözü dönmüş rus qoşunları öz çirkin əməllərini körpəyaşlı bilmədən həyata keçirirdi. Xüsusilə qeyd etmək istəyirəm, küçələrdə yaralıların köməyinə çatmağa can atan gənclərimizə divan tutmuş, amansızca qətlə yetirmişlər. Bu hadisələr xalqın yaddaşına "Qara Yanvar" adı ilə yazılmışdır.

Qatil gülləsinə qurban gedərkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən torpağına çəkdi şəhidlər.

Yanvar hadisələri zamanı ölkə üzrə 150 nəfər öldürülmüşdür. Bu qanlı hadisələrdən sonra, Azərbaycan xalqının SSRİ-yə münasibəti tamamilə köklü şəkildə dəyişdi. Azərbaycanın öz milli müstəqillik ideyalarının reallaşdırılmasında 20 Yanvar qırğını mühüm rol oynadı. Azərbaycanın kommunist rəhbərləri xalqın milli şüurunda baş verən köklü dəyişiklikləri görmədiyi halda, Heydər Əliyev yanvarın 21-də Moskvada öz bəyanatı ilə çıxış edərək, SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi qərəzli siyasətinə kəskin etirazını bildirmişdir. Bu qanlı döyüşlərdə neçə-neçə qəhrəman, igid oğullarımız doğma yurdlarının müdafiəsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüş, 20 min nəfər həlak olub, 50 min nəfər əlil qalıb. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülmüşdü. Bu qanlı faciə nəticəsində I Qarabağ müharibəsinin nəticəsində 117 nəfər həyatını itirmiş, 744 nəfər yaralanmış, 841 nəfər həbs olunmuşdu. Quzğun düşmən qarşısında inamla dayanıb Vətən torpaqlarını müdafiə edərkən şəhid olan xüsusi fədakarlıqlar göstərən qardaşlarımızdan bir neçəsinin adını qeyd etmək istəyirəm. Qocayev İsgəndər İsfəndiyər oğlu Kəlbəcər döyüşlərində göstərdiyi böyük qəhrəmanlıqla, Quliyev Aqil Sahib oğlu Bakıda törədilən qanlı gecədə göstərdiyi xüsusi mərdliklə, Abdullayev Eyyub Mahmud oğlu qanlı yanvar şəhidi, Abbasov Sabir Rzaqulu oğlu kimi neçə -neçə belə igid qəhrəmanlarımız qanlı yanvar gecəsində şəhid oldu.

Qatil gülləsinə qurban gedərkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən torpağına çəkdi şəhidlər.

İstər münaqişəli müharibə ərəfəsində, istərsə də Azərbaycana qarşı törədilən böyük cinayətdən sonra SSRİ Konstitusiyası və beynəlxalq hüquq normaları tərəfindən heç bir münasibət bildirilmirdi. Ermənistanın hərbi təcavüzü, eyni zamanda, Azərbaycanda yaranmış vətəndaş müharibəsi təhlükəsi, hərc-mərclik, iqtisadi böhran, ölkəni faktiki "olum, ya ölüm" seçimi qarşısında qoymuşdur. Taleyimizin həll olunduğu belə bir ağır zamanda xalqın təkidli tələbinə səs verərək Heydər Əliyev cənabları, yenidən hakimiyyətə qayıtdı. O, Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış və bütün sahələrdə hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Geniş biliyə və dərin təfəkkürə sahib olan Heydər Əliyev cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan cəmiyyətinin ən ciddi məsələlərini uğurla həll etmişdir. 1993-cü il iyunun 15-də Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqda ölkədə mürəkkəb şərait hökm sürürdü. Məhz belə kritik vaxtda Azərbaycan xalqı öz qurtuluşunu böyük oğlu, təcrübəli dövlət xadimi Heydər Əliyevin siyasətində görür və ölkənin gələcək taleyini ona etibar edirdilər. Heydər Əliyev öz xalqını mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və onu müstəqilliyinə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev sayəsində qədəm qoymuşdur. Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna böyük rolu olmuş, bütün varlığı ilə sevdiyi və canından əziz sandığı doğma xalqının mənafeyini daim önə çəkmiş və respublikamızın inkişafı üçün bütün imkanlarından istifadə etmişdir.



II Qarabağ Vətən müharibəsi. 2020-ci il sentyabrın 27-də Ermənistan Respublikaının silahlı qüvvələri beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi atəşə tutmuşdur. 27 sentyabr 2020-ci il tarixində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində , kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmmisi düşmüş və nəticəsində bir ailənin 5 üzvü ölmüşdür. 04,05,08,11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 26 nəfər həlak olmuş,175 nəfər yaralanmışdır. Azərbaycan Silahlı Qüvvələri bu hərbi təhdidlərin qarşısını almaq məqsədi ilə əks-hücum əməliyyatlarına başlayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə təcavüzkarlara adekvat cavab verilməsi isiqamətində əmr olunur.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, bütövlükdə xalqımız əzm və iradəsi ilə, bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirərək onları məhv etmişlər. İgid əsgərlərimiz bu yolda böyük mərdlik göstərdilər. Vətən üçün mərdliklə canlarını qurban verdi oğullarımız. Rəşadətli Azərbaycan əsgər və zabirləri addım - addım irəliləyərək Ermənistanın uzun illər ərzində qurduğu sistemlərini yox edərək, torpaqlarımızı əsarətdən azad etdilər. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz deyirlər. 2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş naziri və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycan qələbəsi ilə başa çatdı.

Vətən uğrunda, torpaqlarımızın azadlığı uğrunda müharibədə şəhid olmuş əziz canlarımdan keçən o cavan oğullara, igidlərimizə allah rəhmət eləsin! Yaralı hərbiçilərimizə tezliklə şəfa versin. Məhz bu igid oğullarımızın sayəsində biz torpaqlarımızı geri qaytarmağı bacardıq. Onlar torpaqlarımızı qarış-qarış azad edib babalarımızın ruhunu şad etdilər, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımıza sancaraq göylərə ucaltdılar. Var olun Vətən oğulları! Sizlər öz qəhrəmanlıqlarınızla, şücaətinizlə adlarınızı azadlıq uğrunda qəhrəmanlıq salnaməsi yaradaraq müqədləşdiniz. Bu gün sizlər " Vətən başın sağ olsun " dediniz, Vətən isə uğrunda can verən mərd oğullarının və şəhidlərin adını qızıl hərflərlə tarixə yazdı əziz Qazilərimiz, müqəddəs Şəhidlərimiz!

*Türkəm Mən!*
*Al Qana Boyanan Al Bayrağım Var*
*Sinəmdə Döyünən Qurd Ürəyim Var*
*Mənim Bükülməyən Türk Biləyim Var*

*Türkəm Mən!*
*Şimşək Tək Durlayıb Çaxasıyam Mən*
*Dönüb Qarabağın Yanan Köksünə*
*Yurdum Xocalıda Qalasıyam Mən!*
*Türkəm Mən! Türkəm Mən!*

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün müharibə ərzində düşmən ordusunu məhv etdi, ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan xalqı heç vaxt işğalla barışa bilməzdi.Möhtərəm Prezidentimiz İlham Əliyev demişdir ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytarmalıyıq. Xalq birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışa bilmirdi, çünki xaincə qurulan plan nəticəsində torpaqlarımızı ələ keçirmişdilər. Bu gün Azərbaycanın şanlı ordusu sayəsində torpaqlarımız geri qaytarıldı. İndi xalqımız tökülən qanların qisasını almış, üzü ağ müzəffər xalq kimi yaşayır. Bax bu bizlərə təsəllidir. Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz yenilməz mərd əsgərlərimiz və zabitlərimiz sayəsində, bundan sonra da müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq. Necə ki, illər öncə uzaqgörən Ümummilli liderimiz olan Ulu Öndər Heydər Əliyev demişdir:

***"Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzukidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır.***

***Heydər ƏLİYEV,***
***20 mart 1998-ci il"***

Birinci və İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bir daha baş əyirik, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi olaraq yaşadacaq və unutmayacağıq.

***Təranə CAVDOVA***
***17.10.2024-cü il***